# GÜRCÜSTAN

SAYI 99-100 (13.369)
CÜMƏ 27 DEKABR 2024-cü İL

Qəzet 1921-ci ilin martından çıxır
„GÜRCÜSTAN“ – „საქართველო“
Güc birlikdədir – ძალა ერთობაშია
გაზეთი გამოდის 1921 წ. მარტიდან

E-mail: Gurcustan_1921@ mail.ru Tel: +995 32 222 04 76 Həftəlik qəzet


# YENİ İLİNİZ MÜBARƏK! 2025 გილოცავთ ახალ წელს!



## Əziz həmvətənlərimiz!

**Sizi Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə səmimi qəlbdən təbrik edir, sağlam ömür, firavan həyat, uğurlu günlər, xoşbəxt gələcək, sülh və əmin - amanlıq arzulayırıq!**

## მისალოცი “გურჯისტანს"

გულითადად ვულოცავ დამდეგ ახალ წელს „გურჯისტანის“ რედაქციას და გაზეთის ერთგულ მკითხველებს! მშვიდობის, სტაბილურობის და ახალი მიღწევების წელი ყოფილიყოს 2025 თქვენთვის და სრულიად საქართველოსთვის!

დარწმუნებული ვარ, „გურჯისტანი“ უწყვეტად გააგრძელებს საუკუნოვან ტრადიციას და ჩვენი ქვეყნის აზერბაიჯანულენოვან აუდიტორიას, მშობლიურ ენაზე, რეგულარულად მიაწვდის მნიშვნელოვან სიახლეებს; ყოველკვირეული ქრონიკის შექმნით, ხელს შეუწყობს საქართველოს ეთნიკურად მრავალფეროვანი საზოგადოების გაძლიერებას და ურთიერთპატივისცემაზე დაფუძნებული თანაცხოვრების განმტკიცებას, რაც სრულად ეხმიანება სამოქალაქო ინტეგრაციის სახელმწიფო პოლიტიკის მიზნებსა და პრიორიტეტებს.

გისურვებთ ჯანმრთელობას, კეთილდღეობას და შემოქმედებით წარმატებებს მომავალ საქმიანობაში, ჩვენი ქვეყნის საკეთილდღეოდ დასახული მიზნების მისაღწევად!

***თეა ახვლედიანი,***
***შერიგებისა და სამოქალაქო თანასწორობის საკითხებში საქართველოს სახელმწიფო მინისტრი***






## “Gürcüstan”ı təbrik edirik!

“Gürcistan”ın redaksiya heyətini və qəzetin sadiq oxucularını qarşıdan gələn Yeni il münasibətilə ürəkdən təbrik edirəm! 2025-ci il sizin üçün və bütün Gürcüstan üçün sülh, sabitlik və yeni nailiyyətlər ili olsun!

Əminəm ki “Gürcüstan” mütəmadi şəkildə öz əsrlik ənənəsinə sadiq qalacaq və ölkəmizin azərbaycandilli auditoriyasına öz doğma dillərində müntəzəm olaraq mühüm yenilikləri çatdıracaq; həftəlik xronika yaratmaqla Gürcüstanın etnik cəhətdən müxtəlif cəmiyyətinin gücləndirilməsi və qarşılıqlı hörmətə əsaslanan birgəyaşayışı möhkəmləndirməyə kömək edəcək ki, bu da dövlətin vətəndaş inteqrasiyası siyasətinin məqsəd və prioritetlərinə uyğundur.

Sizə ölkəmizin rifahı naminə qarşıya qoyulan məqsədlərə çatmaq üçün gələcək fəaliyyətinizdə cansağlığı, firavanlıq və yaradıcılığınızda uğurlar arzulayıram!

***Tea Axvlediani,***
***Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə Gürcüstan Dövlət naziri.***

## PARLAMENTDƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ GÜCLƏNDİRİLƏCƏK

***Parlament rəhbərliyi dekabrın 29-da, seçilmiş prezident Mixeil Kavelaşvilinin andiçmə mərasimi günü təhlükəsizlik tədbirlərini gücləndirəcək.***

Bu barədə qanunverici orqanın mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, dekabrın 29-da Gürcüstan Prezidentinin andiçmə mərasiminin keçirilməsi üçün Parlament Sarayında sarı təhlükəsizlik səviyyəsi qüvvədə olacaq. Ziyarətçilərin Parlament Sarayına girişi məhdudlaşdırılacaq.

Qanunverici orqan aydınlaşdırıb ki, xüsusi akkreditasiya almaq üçün media nümayəndələri parlamentə müraciət etməlidirlər.

Yeni təyinat

## VAXTANQ QOMELAURİ BAŞ NAZİRİN MÜAVİNİ TƏYİN OLUNUB

***Baş naziri İrakli Kobaxidze daxili işlər naziri Vaxtanq Gomelaurini Gürcüstanın Baş nazirinin müavini təyin edib.***



Artıq Gürcüstan hökumətinin tərkibində Baş nazirin üç müavini olacaq. Birinci müavin səlahiyyətlərini İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Levan Davitaşvili, digərini isə Müdafiə naziri İrakli Çikovani yerinə yetirir.

Məlumatı hökumət administrasiyası yayıb.

## İRAKLİ KOBAXİDZE AD GÜNÜ MÜNASİBƏTİLƏ İLHAM ƏLİYEVİ TƏBRİK EDİB





***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Prezident İlham Əliyevə təbrik məktubu göndərib.*** Məktubda deyilir:

*“Zati-aliləri. İcazə verin Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Sizə möhkəm cansağlığı, əmin-amalıq və uğurlar arzulayıram.*

*Azərbaycan Respublikasının inkişafında və rifahında Sizin xidmətiniz əvəzolunmazdır.*

*Eyni zamanda, Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın güclənməsində Sizin şəxsi töhfələrinizi minnətdarlıq hissi ilə qeyd etmək istərdim.*

*Şadam ki, ölkələrimiz arasında mövcud olan ənənəvi möhkəm dostluğumuz və strateji tərəfdaşlığımız bütün sahələrdə uğurla inkişaf edir. İnanıram ki, çoxşaxəli və qarşılıqlı faydalı əlaqələrimizi ölkələrimizin və regionun rifahı naminə gələcəkdə də uğurla davam etdirəcəyik.*

*Zati-aliləri, Sizi bir daha səmimi-qəlbdən təbrik edir və Sizə ən dərin ehtiramımı ifadə edirəm”.*

## GÜRCÜSTAN PREZİDENTİ 9 MƏHKUMU ƏFV EDİB

***Gürcüstan prezidenti dekabrın 23-də 9 məhkumu əfv edib.***

Bu barədə Prezident Administrasiyasından məlumat verilib.

Məlumata görə, cəzaçəkmə müəssisəsində cəza çəkən 5 məhkum cəzasını davam etdirməkdən tam azad edilib, 4 məhkumun cəzaçəkmə müəssisəsində çəkilməsi üçün qalan cəza müddəti azaldılıb, onlardan 1 məhkum qadındır.

## YANVAR AYINDA GÜRCÜSTANDA 5 GÜN QEYRİ-İŞ GÜNÜ OLACAQ

***Gürcüstan hökumətinin qərarına əsasən, yanvarın 3-ü, 6-sı, 8-i, 9-u və 10-u bayram günləri elan edilib.***

Bununla bağlı Baş nazir İrakli Kobaxidze qərar imzalayıb.

Sənədə əsasən, qərar inzibati orqan tabeliyində olan sistemə daxil olan və bu qərarın şamil edilməyəcəyi xidmətlərə və Gürcüstan Milli Bankının nəzarəti altında olan şəxslərin maliyyə öhdəliklərinə şamil edilmir.

## BAŞ NAZİR BİZNES NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİB

**Baş nazir İrakli Kobaxidze baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə birlikdə iri biznes nümayəndələri ilə görüşüb.** Bu barədə hökumət administrasiyasından məlumat verilib. Məlumata görə, görüşdə ölkədə baş verən hadisələr müzakirə olunub. Söhbət zamanı hökumətin cari proseslərlə bağlı baxışı və gələcək prioritetlərinə toxunulub. Baş nazir bir daha vurğulayıb ki, Gürcüstan hökuməti ölkənin Avropa yoluna sadiqdir və Avropaya inteqrasiya baxımından indiyədək əldə olunan irəliləyişlər bunu göstərir. Daha sonra görüş sual-cavab rejimində keçib. Baş nazir bizneslə bağlı bütün sualları cavablandırıb. Hökumət başçısı hökumətin kursu ilə bağlı müxtəlif mövqedən çıxış edən biznes nümayəndələri ilə əlavə görüşməyə hazır olduğunu bildirib. Qeyd edək ki, hökumət administrasiyasında keçirilən görüşdə 100-dən çox biznes nümayəndəsi iştirak edib.



## Sitat guşəsi



"Ümumilikdə, ATƏT/DTİHB-nin gəldiyi nəticədən aydın olur ki, seçkilər azad və rəqabət şəraitində keçib. Bunu ATƏT/DTİHB-nin yekun hesabatında görmək olar".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Tez etmək istədiyim işlərdən biri, və prezident Putin mənimlə mümkün qədər tez görüşmək istədiyini söylədi, ona görə də bunu gözləməliyik. Amma əsas məsələ bu müharibəni bitirməkdir".

***Donald Tramp,***
***ABŞ- nin yeni seçilmiş Prezidenti.***



"Hazırda dünyada cərəyan edən mürəkkəb proseslər, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi, ksenofobiya, ekstremizm, məzhəbçilik kimi mənfi təzahürlər beynəlxalq sülhə və əmin-amanlığa ciddi təhdidlər yaratmaqdadır".

***İlham Əliyev,***
***Azərbaycan Prezidenti.***



"Ölkəmizə və hökumətə misli görünməmiş təzyiqlər edilib ki, biz ölkəmizin maraqları, əhalinin dinc gələcəyi naminə deyil, digər böyük dövlətlərin maraqlarını nəzərə alaraq hərəkət edək və bu da dövlətimizin təhlükəsizliyi üçün aşkar risklər təşkil edirdi".

***Kaxa Kaladze,***
***Tbilisi şəhərinin meri.***



"İvanişvili saraya gəlsin, çünki hər şeyi o idarə edir və mən hazıram, oturub müzakirə edək, seçkilərin necə təyin olunacağını fikirləşək. Ancaq seçkilərin təyin olunma tarixi ayın 29-dan əvvəl razılaşdırılmalıdır".

***Salome Zurabişvili,***
***Gürcüstan Prezidenti.***



"Ümid edirəm ki, ölkəniz üçün ən çətin və qaranlıq dövr arxada qalıb. Dəməşqdəyəm ki, türk xalqı, türk dövləti və prezidentimiz Rəcəb Tayyib Ərdoğan hər zaman sizin yanınızda olacaq. Bu qələbə yalnız sizəə məxsusdur, başqa heç kimə".

***Hakan Fidan,***
***Türkiyənin xarici işlər naziri.***



"Əlbəttə, ayrı-ayrı ölkələr gürcü xalqı üçün məqbul olmayan məsələləri qaldıracaqlar, lakin bu məsələlərin davamı yoxdur, biz bunu artıq yaxşı bilirik. Mən hamını gürcü xalqının iradəsinə hörmət etməyə və ona tabe olmağa çağırıram. Gürcü xalqının iradəsinin nə olması oktyabrın 26-da bəlli oldu".

***Rati İonatamişvili,***
***Gürcüstan Parlamentinin insan hüquqlarının Müdafiəsi Komitəsinin sədri.***

## MARNEULİDƏN OLAN GƏNC İDMANÇI TÜRKİYƏNİN MƏŞHUR "KURULUŞ OSMAN" FİLMİNDƏ ROL ALIB



***Marneulidən olan gənc idmançı Kənan Məmmədov Türkiyənin məşhur "Kuruluş Osman" filminin çəkilişlərinə qatılıb.*** Filmdə stand rolu alan həmyerlimiz bildirib ki, idman yarışlarının birində onun döyüş qabiliyyətini gördükdən sonra ona təklif gəlib. Kənan Məmmədov həmçinin qeyd edib ki, qarşıdakı aylarda yeni film çəkilişlərinə də təklif alıb.

## BGMİ-nin QƏRBİ GÜRCÜSTAN ÜZRƏ MÜFTİ SEÇKİLƏRİ KEÇİRİLİB

***Gürcüstan Müsəlmanları İdarəsinin Batumi ofisində Qərbi Gürcüstan üzrə müfti seçkiləri keçirilib.***

Bu barədə idarənin mətbuat xidməti məlumat verib.

Bildirilir ki, dini Şuranın tam tərkibinin qərarına əsasən Hacı Adam Şantadze ikinci müddətə Qərbi Gürcüstanın müftisi seçilib.



## TRAMP: QRENLANDİYA AMERİKANIN MÜLKİYYƏTİNƏ KEÇMƏLİDİR

***Danimarkanın bir hissəsi olan Qrenlandiya adası Amerika Birləşmiş Ştatlarının mülkiyyətinə keçməlidir.***

Bu barədə ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp "Truth" sosial şəbəkəsindəki səhifəsində məlumat verib.

Onun sözlərinə görə, Qrenlandiyaya sahiblik və nəzarət mütləq zərurətdir.

Tramp bunun bütün dünyada milli təhlükəsizlik və azadlıq məqsədləri üçün vacib olduğunu vurğulayıb.



## VƏTƏNDAŞLARA ZƏNG EDƏRƏK DİN ADINDAN PUL TƏLƏB EDƏN ŞƏXSLƏR SAXLANILIB



***Tbilisi, Batumi və Mtsxeta-Mtianeti regionlarında həyata keçirilən əməliyyat və istintaq tədbirləri nəticəsində Daxili İşlər Nazirliyinin Tbilisi Polis İdarəsinin Baş İstintaq Bölməsinin əməkdaşları, hakimin qərarı ilə 4 nəfəri həbs ediblər.***

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Məlumata görə, təqsirləndirilən şəxslərin törətdikləri cinayət əməlləri nəticəsində 61 vətəndaş zərər çəkib, dələduzluq yolu ilə mənimsənilən məbləğ isə yarım milyon lari təşkil edib.

Nazirliyin məlumatında qeyd olunur ki, təqsirləndirilən şəxslər mütəşəkkil dəstə tərəfindən külli miqdarda dələduzluqda ittiham olunaraq həbs ediliblər.

İstintaq zamanı müəyyən olunub ki, bu ilin bir neçə ayı ərzində Tbilisidə Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları adından vətəndaşlarla əlaqə saxlanılıb və onlara, ailə üzvünün təqsiri üzündən yol-nəqliyyat hadisəsi baş verdiyi bildirilib. Vətəndaşlara, bu hadisənin aradan qaldırılması üçün rüşvət şəklində müəyyən məbləğdə pul ödəmələri təklif edilib.

Vətəndaşlardan razılıq alındıqdan sonra, şübhəlilər özlərini başqa ad və soyadla təqdim edib, pulu götürərək, kriptovalyuta pul kisəsinə keçiriblər.

Faktla bağlı istintaq Cinayət Məcəlləsinin 180-ci maddəsinin 3-cü hissəsinin "b" bəndi və 4-cü hissəsinin "a" bəndi ilə aparılır. Saxlanılan şəxsləri 10 ilədək azadlıqdan məhrum etmə cəcazı gözləyir.

## İRAKLİ KOBAXİDZE İLHAM ƏLİYEVƏ BAŞSAĞLIĞI VERİB

***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Prezidenti İlham Əliyevə başsağlığı məktubu ünvanlayıb.***

Baş nazir məktubunda Bakı-Qrozni reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzası ilə əlaqədar olaraq kədərləndiyini qeyd edib.

Sözügedən məktubda deyilir:

*"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhərinin yaxınlığında qəzaya uğraması xəbəri məni dərindən sarsıtdı.*

*Gürcüstan Hökuməti və gürcü xalqı adından Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Bu çətin anlarda biz qardaş Azərbaycanın yanındayıq. Həlak olanların ailələrinə başsağlığı verir, yaralıların tezliklə sağalmasını arzulayırıq.*

*Zati-aliləri, Sizin və dost Azərbaycan xalqının kədərini bölüşürük".*

***"Gürcüstan" qəzetinin kollektivi çoxsaylı insan tələfatına səbəb olmuş təyyarə qəzası ilə əlaqədar həlak olanların ailələrinə və yaxınlarına, bütövlükdə Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir, yaralıların isə tezliklə şəfa tapmasını diləyir.***

## REGİON XƏBƏRLƏRİ

### Dmanisi: "YENİ İL GÜNLƏRİ" ADLI TƏDBİR KEÇİRİLİB

***Meriyaya bitişik meydanda yeni il evləri, fotostendlər və qurğular yerləşdirilib. Tədbir çərçivəsində Milad bazarı təşkil olunub, burada yerli məhsullar və əl işləri sərgilənib, bayram yürüşü də keçirilib. Şaxta baba uşaqlara hədiyyələr verib.***

Həmin gün şəhərin əsas yolkası da alovlandırılıb. Yeni il tədbiri konsert və bayram atəşfəşanlığı ilə başa çatıb.

Tədbirdə Dmanisi bələdiyyəsinin meri Koba Muradaşvili, Sakrebulonun sədri Paata Kuliaşvili və özünü idarə etmə orqanlarının rəhbərləri iştirak ediblər.



### Marneuli: YENİ İL TƏDBİRİ ATƏŞFƏŞANLIQLA BAŞA ÇATIB

***Marneulidə "Yeni il günləri" adlı tədbir keçirilib.***

Tədbir çərçivəsində Milad bazarı təşkil olunub, Meriyanın yaxınlığında Yeni il evləri, dekorativ foto - zonalar və Yeni il qurğuyerləşdirilib.

Xüsusi təşkil olunmuş uşaq əyləncə məkanlarında gün ərzində müxtəlif tədbirlər keçirilib. Şaxta baba uşaqlara hədiyyələr paylayıb.

Tədbir, gürcü estrada ifaçılarının konserti və bayram atəşfəşanlığı ilə başa çatıb.



### Tetritskaro: MƏŞVƏRƏT ŞURASININ İCLASI KEÇİRİLİB

***Sessiyada dövlət müvəkkili Qiorqi Doxturişvili iclasda iştirak edən üzvlərlə birlikdə gündəliyə daxil edilmiş cari məsələləri müzakirə edib.*** Diqqət 2024-cü ildə artıq həyata keçirilən və davam edən layihələrə, eləcə də gələn il planlaşdırılan və həyata keçiriləcək layihələrə yönəldilib.

2025-ci ilə qədər su təchizatı, qazlaşdırma, yol və idman infrastrukturunun, habelə istirahət məkanlarının bərpası və tikintisi prosesi prioritet olaraq qalır.

Dövlət Müvəkkili Aparatında keçirilən iclasda dövlət müvəkkilinin müavinləri Nika Kobaxidze, İlia Calağonia, bələdiyyə merləri, Sakrebulo sədrləri və onların müavinləri iştirak ediblər.



### DAŞTƏPƏ KƏNDİNDƏN OLAN SOYDAŞIMIZ ÇİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ YARIŞDA BİRİNCİ YERƏ SAHİB OLUB




***Marneuli bələdiyyəsinin Daştəpə kəndindən olan soydaşımız Elvin Ediqarov Çində keçirilən Bodibildinq üzrə beynəlxalq yarışda yüksək nəticə əldə edib.*** E. Ediqarov "Men's physique" bodybuilding kateqoriyasında böyüklər üzrə keçirilən yarışda birinci yerə sahib olub. Çində baş tutan yarşıda 15 ölkədən 60-dan artıq idmançı iştirak edib. Qeyd edək ki, beynəlxalq yarışda Gürcüstan azərbaycanlılarını yeganə təmsil edən Elvin Ediqarov olub.

## BEYNƏLXALQ HƏYAT

### PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANDA BAŞ VERƏNLƏRƏ MÜNASİBƏT BİLDİRİB



*"Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin".* Bu fikirləri Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində söyləyib. Azərbaycan Prezidenti qeyd edib ki, yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir: *"Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Gürcüstan məsələsində deməliyəm ki, o, göründüyündən daha genişdir. Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə, bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-fakto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların de-yure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq",* - deyə İlham Əliyev qeyd edib.

### DÜNYA KATOLİKLƏRİ MİLAD BAYRAMINI QEYD EDİBLƏR

***Xristian aləminin ən əlamətdar və təntənəli mərasimlərindən sayılan Milad bayramı ənənəyə görə İsa Məsihin Vifleyem şəhərində dünyaya gəlməsinin şərəfinə qeyd olunur.***



Dünya xristianları mənsub olduqları məzhəblərə görə bu bayramı müxtəlif günlərdə (25 dekabr və 6-7 yanvar) keçirirlər və o, hazırda yüzdən artıq ölkədə rəsmi dövlət bayramı sayılır.

Milad bayramı əhalisinin əksəriyyətini xristianların təşkil etdiyi bir çox ölkədə qeyri-iş günü hesab edilir. Ancaq xristian əhalinin çoxluq təşkil etmədiyi Hindistan və Malayziya kimi ölkələrdə də bu gün rəsmi tətildir.

Bayramı qeyd edən ölkələrin əksəriyyətində mağazaların çoxu həmin gün bağlı olur. Məsələn, İngiltərədə 25 dekabrda heç bir ictimai nəqliyyat vasitəsi işləmir.

Milad bayramının ən əvəzedilməz atributlarından biri də təbii ki, "Santa Klaus", yəni Şaxta Babadır. Onun obrazının ilham mənbəyi kimi IV əsrdə yaşamış Müqəddəs Nikolas qəbul edilib.

Xarici ölkələrdə bayram hazırlığı bir neçə ay əvvəldən başlayır, böyük şövq və təntənə ilə həyata keçirilir. Bu ərəfədə evlərdə və müxtəlif ictimai məkanlarda şam ağacları bəzədilir və küçələr işıqlandırılır. Milad ərəfəsi şam ağacı bəzəmək adətinin ilk dəfə XVI əsrdə Almaniyada meydana gəldiyi və Avropaya buradan yayıldığı güman edilir.

Ənənəvi Milad süfrəsini hindtoyuğu və tərəvəz bəzəyir. Bununla belə, bayram süfrəsinə düzülən təamlar ayrı-ayrı xalqların adət-ənənəsini də özündə əks etdirir. Belə ki, Siciliyada bayram masasına 12 növ balıq qoyulur. Birləşmiş Krallıq və onun adətlərindən təsirlənmiş ölkələrdə süfrədə hindtoyuğu, qaz əti, ət suyu, kartof və tərəvəzlər olur. Süfrə üçün xüsusi desertlər də hazırlanır ki, bunlardan da başlıcası Milad pudinqi, şirin peçenyelər və meyvəli piroqlardır.

### E. MAKRON VƏ V. ZELENSKİ QƏRB QOŞUNLARININ UKRAYNAYA GÖNDƏRİLMƏSİ TƏŞƏBBÜSÜNÜ MÜZAKİRƏ EDİBLƏR

***Fransa və Ukrayna prezidentləri Emmanuel Makron və Vladimir Zelenski Qərb qoşunlarının Ukraynaya göndərilməsi imkanını müzakirə ediblər.***



Bu barədə Zelenski X - də yazıb.

*"Prezident Emmanuel Makronla səmərəli görüşüm oldu. Rusiya təcavüzünə qarşı Ukraynanın mövqeyini daha da gücləndirmək üçün əsas prioritetləri müzakirə edərək ətraflı müzakirə apardıq. Hava hücumundan müdafiə imkanlarının gücləndirilməsinə aydın diqqət yetirilir. Biz ümumi baxışı bölüşürük: həqiqətən əldə edilə bilən sülh üçün etibarlı təminatlar lazımdır",* - Zelenski X-də belə yazıb.

Onun sözlərinə görə, Qərb qoşunlarının Ukraynaya yerləşdirilməsi sülhə gedən yolun sabitləşməsinə töhfə verəcək.

*"Biz prezident Makronun Ukraynada sülhə gedən yolu sabitləşdirməyə kömək edə biləcək qüvvələrin olması ilə bağlı təşəbbüsü üzərində işləməyə davam etdik",* - deyə Zelenski yazıb.



### DAHA BİR NÜFUZLU NƏŞR TRAMPI "İLİN ADAMI" ELAN EDİB

***"Financial Times" qəzeti ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampı "İlin adamı" elan edib.***

Bu barədə xarici KİV məlumat yayıb.

Qeyd edək ki, bundan əvvəl "Time" jurnalı D.Trampı "İlin adamı" seçmişdi.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**Gora kəfənsiz gedəsən! (getsin!)** – qarğış ifadəsi.

*Meynələrdə qora,*
*İlişdim, düşdüm tora,*
*Səni mənnən eləyən,*
*Kəfənsiz getsin gora.*

(Bayatı).

**Goruna od qalansın!** – qəbri(n) yansın! (qarğış ifadəsi).

*Goruna od qalansın,*
*A bu sarsaq kişini əkən dədə!*

"M. N. lətif."

**Baş gora aparmaq** – ölmək, ölüb getmək.

*Bədbəxt, mən o kəsə deyərəm ki, bu beş qara günü ləzzət-damaq ilə keçirib baş gora aparmaya.*

Ə. Haqverdiyev.

**GORBAGOR** *[fars.]* Ölmüş adam haqqında söyüş məqamında işlənir.

[Fəxrəddin:] *Onun* [Qətibənin] *gorbagor atasının qızın səadətini əlindən aldığı bəs olmadımı?*

M. S. Ordubadi.

◊ **Gorbagor etmək** – ölmüş bir adamı rüsvay etmək, təhqir etmək, dalınca söymək.

*Birisi Hacı Manafdır, özü Üryan oğlu;*
*Gör mən indi edərəm gorbagor ol üryanı.*

S. Ə. Şirvani.

**Gorbagor olmaq** – ölmək, gəbərmək (söyüş kimi işlənir).

[Səfər:] *Bilirəm, dədə-babam gorbagor olacaq! Cəhənnəmə, ondan mənə bir zərər yoxdur.*

C. Cabbarlı.

**GORDA** Birağızlı, əyri qılınc; yatağan. Gorda ilə vurmaq.

– *Qorodovoy börkünü başına basıb, gordası qılçasına dolaşadolaşa yüyürüb getdi…*

Çəmənzəminli.

**GORGAH** *[fars.]* Qəbiristanda bir nəsildən olan adamların basdırıldığı yer; qəbir.

[Budaq:] *Bircə aydan sonra bu qəbir itibbatar, atamın gorgahı bilinməz, nişangahından xəbərimiz olmazdı.*

Ə. Vəliyev.

**GÖBƏK** 1. Göbəkbağı düşdükdən sonra qarnın ortasında qalan kiçik çuxur, batıq.

□ **Göbəyə qədər (kimi)** – belə qədər, beləcən.

*Biçinçilər sıra ilə durmuş, göbəyə qədər qalxmış yaş otu biçir … və qurumuş otlardan qotman vururdular.*

A. Şaiq.

**GÖBƏKBAĞI** *anat.* İnsan və ya heyvan rüşeymini ananın bədəni ilə birləşdirən və rüşeymin qidalanmasına vasitə olan boru.

**GÖBƏKDUASI** Köhnə məişətdə: cəhalət və nadanlıq əlaməti olaraq xəstə, yaxud uşağı olmayan qadınların göbəkləri ətrafına yazılan dua.

**GÖBƏKGÖTÜRƏN** Köhnə məişətdə: göbəkgötürmə ilə məşğul olan ara həkimi.

**GÖBƏKGÖTÜRMƏ** Köhnə məişətdə: ara həkimlərinin dua oxuyub göbəyə püfləməsindən ibarət yalançı müalicə üsulu.

**GÖBƏKKƏSMƏ** *etnoqr*. Qız və oğlan uşağını anadan olanda bir-birinə nişanlama adəti: beşikkəsmə.

*Salondan daha bir qız səsi eşidildi: – Deyirlər, keçmişdə göbəkkəsmə olardı…*

Ə. Sadıq.

**GÖBƏKLİ** *dan.* Qarnı iri olan; kök, yoğun, yekəqarın. *Göbəkli adam.*

*Atlı dəstəsinin önündə gələn yaşıl çalmalı, şişman göbəkli adam Həmədan valisi idi…*

Ə. Məmmədxanlı.

**GÖBƏKYAZAN** *köhn.* Göbəkduası yazan adam, molla (bax **göbəkduası**).

*Deyin o göbəkyazana, qələmin ucun yavaş bas!*

M. Möcüz.

**GÖBƏLƏK** *1. bot.* Xlorofili olmayan, əsasən sporlar vasitəsilə çoxalan ibtidai bitki. *Yeməli göbələk. Zəhərli göbələklər.*

*Uşaqları tapıb, çiyələk, göbələk toplamağa, ya dərədə daşlar arasında balıq tutmağa gedirdik.*

A. Şaiq.

2. Bir sıra dəri xəstəliklərinin əmələ gəlməsinə səbəb olan bitki mikroorqanizmləri. *Göbələk xəstəlikləri.*

◊ **Göbələk kimi yerdən çıxmaq (göyərmək)** – tez və bollu meydana gəlmək, törəmək.

**GÖBƏLƏKBAŞ** Başının forması göbələk kimi olan; yastıbaş. *Göbələkbaş adam.* // Ağ əmmaməli din xadimlərinə istehza ilə verilən ad.

[Fatma:] *Özüm də şəri məsələləri min sənin kimi göbələkbaşdan artıq bilirəm.*

P. Makulu.

**GÖL** 1. Dənizlə bilavasitə əlaqəsi olmayan təbii su hövzəsi. *Aral gölü. Göy göl. Şor göl.*

*Bir göl içrə üzürdü bir yekə qaz,*
*Özünə fəxr edib uzatdı boğaz.*

S. Ə. Şirvani.

**GÖMGÖY**[1] Tünd-göy, tünd-mavi. Gömgöy paltar.

*Buludsuz, açıq, şəffaf, gömgöy səma birdən-birə bulanır…*

M. Rzaquluzadə.

**GÖMGÖY**[2] 1. Tünd-yaşıl, yamyaşıl; hər tərəfi yaşıl. Gömgöy parça.

*Quşlar gömgöy budaqlarda oturub oxuşurdular.*

S. S. Axundov.

2. Soyuqdan, hirsdən göyərmiş. *Hirsindən gömgöy olmaq.*

*İşləmiş qanına bu quduz şaxta,*
*Qalın dodaqları gömgöy kəsilir.*

S. Vurğun.

3. Zərbə və s. nəticəsində bədənin hər hansı bir yerində əmələ gələn tünd-göy ləkə. *Qonşular hələ o vaxt deyirdilər ki, Minayənin üzü-gözü gömgöydür, cırıq-cırıqdır.*

Ə. Əbülhəsən.

□ **Gömgöy göyərmək** – göy ləkələr əmələ gəlmək, bərk göyərmək.

[Səriyyə:] *Hələ bu gün səhər məni o qədər vurublar ki, əndamım gömgöy göyərib.*

C. Cabbarlı

*Özü yoxsul balası, həm də qərib,*
*Üz-gözü gör necə gömgöy göyərib.*

Ə. Vahid.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Hərf | | Əlifba sırası ilə adı | Hərf | | Əlifba sırası ilə adı | Hərf | | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir.

* * *

*(Əvvəli ötən sayımızda)*

**ზოდიაქოს ნიშნები** (Zodiakos nişnebi) **– Bürclər**

**ქალწული: 23 აგვისტო - 22 სექტემბერი** (Kaltsuli: 23 aqvisto - 22 sektemberi) **- Qız: 23 avqust - 22 sentyabr.**

**ქალწული პერფექციონისტი და დისციპლინირებული ნიშანია. (**Kaltsuli perpektsionisti da distsiplinirebuli nişania.) **- Qız mükəmməlliyə meylli və nizam - intizamlı bir bürcdür.**

**ისინი ყურადღებას აქცევენ დეტალებს.** (İsini ğuradğebas aktseven detalebs.) **- Onlar detallara diqqət yetirirlər.**

**სასწორი: 23 სექტემბერი - 22 ოქტომბერი)** (Sastsori: 23 sektemberi – 22 oktomberi) **- Tərəzi: 23 sentyabr - 22 oktyabr**

**სასწორი ჰარმონიისა და სამართლიანობის ნიშანია.** (Sastsori harmoniisa da samartlianobis nişania.) **- Tərəzi harmoniya və ədalət bürcüdür.**

**მორიელი: 23 ოქტომბერი - 21 ნოემბერი.** (Morieli: 23 oktomberi – 21 noemberi) **- Əqrəb: 23 oktyabr - 21 noyabr.**

**მორიელი ძლიერი და ემოციებით სავსეა.** (Morieli dzlieri da emotsiebit savsea.) **- Əqrəb güclüdür və emosiyalarla doludur.**

**ისინი არიან საიდუმლოებებით მოცულნი.** (İsini arian saidumloebit motsulni.) **- Onlar sirlərlə dolu olurlar.**

**მშვილდოსანი: 22 ნოემბერი - 21 დეკემბერი.** (Mşvildosani 22 noemberi – 21 dekemberi) **- Oxatan: 22 noyabr - 21 dekabr.**

**მშვილდოსანი თავგადასავლებისა და თავისუფლების ნიშანია.** (Mşvildosani tavqadasavlebisa da tavisuplebis nişania.) **- Oxatan macəra və azadlıq bürcüdür.**

**თხის რქა: 22 დეკემბერი - 19 იანვარი.** (Txis rka: 22 dekemberi - 19 ianvari) **– Oğlaq: 22 dekabr - 19 yanvar.**

**თხის რქა მიზანდასახული და დისციპლინირებული ნიშანია.** (Txis rka mizandasaxuli da distsiplinirebuli nişania.) **- Oğlaq məqsədli və nizam - intizamlı bir bürcdür.**

**მერწყული: 20 იანვარი - 18 თებერვალი.** (Mertsğuli: 20 ianvari - 18 tebervali) **– Dolça: 20 yanvar - 18 fevral.**

**მერწყული არის კრეატიული და ორიგინალური ნიშანი. (**Mertsğuli aris kreatiuli da oriqinaluri nişani.) **- Dolça yaradıcı və orijinal bir bürcdür.**

**თევზები: 19 თებერვალი - 20 მარტი.** (Tevzebi: 19 tebervali - 20 marti.) **– Balıqlar: 19 fevral - 20 mart.**

**თევზები ემოციური და ინტუიციური ნიშანია.** (Tevzebi emotsiuri da intutsiuri nişania.) **– Balıqlar emosional və intuisiyaya sahib bir bürcdür.**

**ისინი ხშირად არიან შემოქმედებითები.** (İsini xşirad arian şemokmedebitebi.) **- Onlar əsasən yaradıcıdırlar.**

# II İRAKLİ VƏ XUDU BORÇALI

## (TARİXİ POVEST)

*Bütün Gürcüstanda əzəmətli, cəsur olan Xudu Borçalı.*

**Teymuraz Baqrationi**

*(Əvvəli ötən sayımızda)*

Yeni il, 1798-ci il yetişdi. İl elə gəldi ki, gəlişini, demək olar, heç kim hiss etmədi. Telavidə yeni bayram ovqatı idi. Şəhərin gözü yeni açılmışdı. Təzə təqvimlə yeni il qarşılanmış, köhnə təqvimlə hələ gəlməmişdi. İraklinin durumu getdikcə ağırlaşırdı. Yatağında o tərəf-bu tərəfə qurcalanmaq istədi. Gücü çatmadı. Gözlərini məchul bir nöqtəyə zillədi. Bu kiçik nöqtə get-gedə böyüdü, gözləri önündə toranlıq yaratdı. Sanki bütün aləm qaranlığa qərq oldu. Özünü ələ alaraq handan-hana taxtın varisi, böyük oğlu Georgini çağırtdırdı. Georgi də xəstə idi, halı özündə deyildi. Lakin tezcə özünü atasına yetirdi, qarşısında müntəzir olaraq dayandı. İrakli onu görcək çox sevindi, başını qaldırmaq istədi, lakin dirsəklənməyə də halı yox idi. Təbəssüm dolu gözlərini ona dikdi, sanki baxışları ilə deyirdi ki, özündən sonra varisi ləyaqətlə öz vəzifəsini yerinə yetirməyə əmin idi. Qırıq-qırıq kəlmələrlə ona tapşırıqlar verərək yola saldı. İndiyədək hiss etmədiyi bir duyğu ona hakim kəsilmişdi. Bunu həyat yoldaşına, uşaqlarına, nəvələrinə hiss etdirməməyə çalışırdı. Sinəsində küt ağrılar baş qaldırırdı, az qala huşunu da itirəydi. Ətrafa baxdı, oğul- qızları, nəvələri, yaxınları yan-yana düzülmüşdü. Peterburqda olan oğlu Mirian gözünə dəymədi. Özünü zorla ələ alaraq soruşdu. "Darıxmayın, çar əlahəzrətləri, yoldadır, gəlir, özü də Avropada yaxşı təhsil alan həkim gətirir. Tezliklə özünü yetirəcək", - dedilər. İrakli heç nə demədi, yaxşı bilirdi ki, yol üç aylıq yoldu, belə tez gələ bilməz. Gözünə qızı sataşdı. Tamar nişanlı idi, yanında Təklə dayanmışdı. O, hələ balaca idi. Fikirləşdi ki, qızı Tamarın köçürülməsini, ən sevimli qızı Teklenin toyunu görə bilməyəcəkdi. Tekle kövrəlmişdi, hıçqırığını zorla saxlayırdı, atasının bağışladığı şalın ucu ilə, heç kimə hiss etdirməməyə çalışaraq, gözlərini ehtiyatla sildi. Bir xeyli vaxt keçəndən sonra İrakli eşiyə çıxarılmasını tələb etdi. Ayazlı bir qış gecəsi idi. Onu qoluna girərək bayıra çıxartdılar. Başını qaldırıb səmaya boylandı, sanki doğma səma ilə xudahafizləşirdi. O, bir az beləcə dayanıb dərindən nəfəs alandan sonra içəriyə apardılar. Yatağına uzatdılar. Yalnız "Yaxşıdır, yaxşı" kəlmələrini təmkinlə ifadə etdi, İrakli divardakı xalçaya və onun üzərindəki şəkillərə bir daha göz gəzdirdi. O, yenə baxışlarını məchul bir nöqtəyə zilləyərək ürəyində pıçıldamağa başladı. Bu məchul nöqtə yenə get-gedə böyür, qaranlıq bir aləmə çevrilirdi. Artıq o, heç nəyi görə bilmirdi. Onu tamam vahimə bürümüşdü. Qeyri-ixtiyari olaraq ürəyində öz uşaqlarına, yurduna və ələlxüsus, ağır duruma düşmüş bütün Gürcüstana xaç çəkərək dualar oxuyurdu. Səsi çıxmasa da, yanındakılar yaxşıca hiss edirdilər. Sanki İrakli ilə onlar arasında məsafə get-gedə uzaqlaşırdı. Duanı bitirəndən sonra bircə dəfə dərindən nəfəs alaraq əbədi gözlərini yumdu. Bu an otağı Darecanın və qızlarının ağlaşması lərzəyə gətirdi. İrakli artıq axirətə qovuşmuşdu.

***

1798-ci il yanvarın 11-i idi. Artıq günəşin çıxdığı hiss olunurdu. Buludlar arasından onun şüaları süzülürdü. Telavi çar sarayında, Baqrationilər sülaləsində matəm idi. Çar II İrakli 78 yaşında həyatla vidalaşmışdı. Çarın vəfatı ilə əlaqədar ölkənin hər yerinə çaparlar göndərilmişdi. Bir neçə gün keçəndən sonra Gürcüstanın hər yerindən, eləcə də Borçalı, Qazax, Şəmsədildən eşidənlər bu böyük çarı son mənzilə yola salmaq üçün birbaşaTelaviyə üz tuturdu. Telavinin başı üstündə göyün üzünü qara buludlar bürümüşdü. Telavidən başlamış qara bulud yavaş-yavaş Tiflisə doğru hərəkət edirdi. Sanki yer-göy matəm içində idi. Bura axışıb gələnlər sarayın həyətində və həndəvərlərində qurulmuş çadırlara toplaşaraq qəmgin-qəmgin, astadan söhbət edirdilər. Yadigaröyündən Xudu birinci özünü yetirdi. Əslində o, şahzadə Aleksandre ilə Tiflisdə bərpa işləri ilə məşğul olsa da, bir ayağı Telavidə idi. Tez-tez gəlib-gedirdi. Çarın durumundan halı olurdu. Onun halına çox acıyırdı. Ona çox öyrəşmişdi. İndən belə sevimli çarı olmadan özünün axırının necə olacağını düşünürdü. Carlığa namizəd vəliəhd Georgi idi, onunla da yaxşı münasibəti var idi, amma şahzadə Aleksandre ilə daha yaxın idi. Onunla dostlaşmışdı. Bir an ondan aralı dura bilmirdi. Yadigar oğlu Sadıq və onun oğulları Allahverdi və Ağacan da bu acı xəbəri eşidən kimi özlərini yetirmişdilər. Allahverdi öz əli ilə onun tabutunu hazırlamışdı. Özü də iki qatı qalın olaraq. Tabutu bahalı xalçalar və məxmərlərlə örtülmüş böyük salonun ortasına qoymuşdular. Tabutun dörd bir tərəfində onun həyat yoldaşı Darecan, oğul-qızları, qohumları oturmuşdular. Çariça Darecan özünü təmkinli aparırdı. Bura gələnlər tabutun başına fırlanaraq bəziləri mərhumun yaxınları ilə görüşür, bəziləri isə sadəcə olaraq başı ilə onların dərdlərinə şərik olduqlarını ifadə edirdilər. Darecan çarın yüksək səviyyədə dəfn olunması barədə tədbir görürdü. O, katolikos-patriarx II Anton ilə İraklinin rahatlanması və dəfn olunması mərasiminin təşkilini Telavi Ruhani Seminariyasının rektoru David Aleksi-Mesxişviliyə həvalə etmişdi. Qızları hönkür-hönkür ağlayır, tez-tez göz yaşlarını dəsmal ilə silirdilər. Hamı yasa batmışdı, məmə deyəndən pəpə yeyənə qədər, kəndlidən tutmuş tavada qədər. Camaatın axını davam edirdi. Gələnlər hələ ki, qayıtmır, bəziləri evlərdə, bəziləri də çara hörmət əlaməti olaraq əzab-əziyyətə qatlaşıb elə çadırlarda gecələyirdilər. Xudu Borçalı və Yadigar oğlu Sadığın oğlanları ora-bura vurnuxmaqdan lap haldan düşmüşdülər. Tabut üç həftədən artıq sarayın böyük salonunda qaldı. Cənazə sonra sarayn yaxınlığındakı Ğorçibaşişvililərin məbədinə aparılaraq orada ibadət-dua mərasimin icra olunduğu yerin önündə taxtın üstündə rahatlandı. Sarayın həyətində çarın əşyalarının sərgilənməsi üçün fövqəladə şəkildə bahalı xalçalar ilə bəzədilmiş yerdə onun paltarı, bəzək əşyaları, döyüş silahı, yaraq-yasağı, yəhərləri, mükafatları səliqə ilə düzülmüşdü. Onların yanında da aşağı endirilmiş üç bayraq var idi. Yerə çömələrək oturmuş mehtərlər İraklinin ağ və şabalıdı-qırmızımtıl atlarının cilovunu əllərinə dolayıb tutmuşdular. Çariça Darecan qonaqları qəbul etmək üçün sarayın böyük salonuna çıxaraq onun üçün xüsusi təşkil edilmiş xalçalarla bəzədlmiş yerdə oturmuşdu. Ətrafında fəxri qonaqlar var idi. Hər iki tərəfdə yaşlarına görə şahzadələr, sonra keşişlər və əsilzadələr, tavad-aznaurlar sıraya düzülmüşdülər. Ağ paltarla gəlmiş rahibələr ağlaya-ağlaya üzlərini cıraraq qonaqları qarşılayırdılar. Sarayın otaqlarının divarları bayırdan, içəridən qara bez ilə örtülmüşdü. Matəm salonu və sarayın girəcəyində duran qapıçılar əllərində qırılmış əl ağaclarını tutmuşdular. Salona heç kim papağını başından götürmədən daxil olmurdu. Qadınlar da bəzəksiz, düzəksiz, ənliksiz-kirşansız gəlirdilər. Hamısı hüznlü idi. Sarayın həyətinə ağı deyə-deyə gələn Zemo Kartlinin keçmiş sərdarı, 80 yaşı haqlamış, demək olar ki, bütün döyüşlərdə İrakli ilə çiyin-çiyinə vuruşan tavad Sisişvili daxil olaraq, bir əli ilə İraklinin atının yəhərindən tutub uşaq kimi hönkürməyə başladı. Onun hönkürtüsü yanındakıları da kövrəltdi. Çadırların birinin önünə Borçalıdan, Qazaxdan, Şəmsədildən gələn qarapapaq və tərəkəmələr bir yerə toplaşıb qəmgin-gəmgin durmuşdular. Söhbət etməyə heç halları da yox idi. Yadigar oğlu Sadıq, oğulları Allahverdi və Ağacan, Xudu Borçalı və başqaları, eləcə də onların həyat yoldaşları burada idilər. Allahverdinin həyat yoldaşı Nabatxanım Dariyanın yanına yaxınlaşanda hıçqırıq boğduğundan heç nə deyə bilmədi. Yanında olan qadınlar da ağlayırdı. Dariya da irəli gələrək onu qucaqladı. "Son qəminiz olsun, Dariya bacı, Ulu Tanrı sizi və övladlarınızı bizim üstümüzdən əksik etməsin" - deyə Nabat xanım qırıq-qırıq bu kəlmələri deyə bildi. Dariya onun başını sığallayaraq: "Allah səndən razı olsun, mənə sənin çox əməyin keçib. Dar günümdə mənə həmişə həyan olubsan, işlərimi aşırmaqda mənə həmişə dəstək olubsan. Duşetə gedəndə elə sən mənimlə deyildinmi? Ərin də ki, həmişə İrakliyə sədaqətli olub. Əlli ilə yaxın birgə ömür sürdüyüm İraklinin yanında çox döyüşlərdə olub. Onunla birgə sevinib, birgə qəmlənib. Allah sizdən razı olsun, Nabat bacı" - deyərək, onu qızlarının yanına apardı. Camaat bir yandan axışıb gəlirdi. Telaviyə doğru gedən yolda, təxminən onun bir ağaclığında hər iki tərəfdə yasa batmış camaat dururdu. Elə bu vaxtlar ölkədə qara taun yenə də sənginmək bilmirdi. Məhz onun sovuşmasını gözləyərək çarın dəfnini indiyədək yubatmışdılar. Dəfn mərasimi Tiflisdə də, Mtsxetada da irəlicədən hazırlanmış plana uyğun olaraq müəyyən edilmiş lazımi hörmət-izzətlə keçirilməli idi. Qışın soyuq günlərinə, tabuta çoxlu buzun düzülməsinə baxmayaraq cəsədin xarab olma təhlükəsi mövcud idi. Artıq gözləmək mümkün deyildi. Nəhayət, taxtın varisi Georginin razılığı ilə ölümünün qırxıncı günündə çarın nəşinin birbaşa Mtsxetada Svetistsxoveli məbədinin həyətində dəfn olunması qərara alındı. Qırx günlük ağlaşma, matəm, ibadət-dua mərasiminə və kilsə nəğmələrinin oxunmasına ara verildi. Prosesin ön sıralarında iki topla süvarilər və piyada əsgərlər səf-səf düzülmüşdü. Nəhayət, topların gurultusu və tüfənglərin atəş səsi eşidildi. Bununla da camaata artıq İraklinin cənazəsinin Mtsxetaya aparılacağı bəyan edilirdi.

(Davamı növbəti sayımızda)

**Mirzə Məmmədoğlu,**
**Tədqiqatçı - jurnalist.**

## REDAKSİYAYA MƏKTUB

*Nöqtə-vergülünə toxunmadan*

"Elimizin, xalqımızın qeyrətli, fədakar və sadə insanlarına Tbilisi 64 saylı ictimai məktəbinin müəllim kollektivindən salamlar!

Sizə, məktəbimiz, şagirdlərimiz və müəllim kollektivimiz haqqında məlumat vermək istəyirəm.

Məktəbimizin 70 ildən artıq tarixi var. Bu müddət ərzində təhsil alan minlərlə şagirdimiz dünyanın hər tərəfində məskunlaşmış , ad- sanla yaşamış, bəziləri isə ömrünü başa vurmuşlar. Bütün məzunlara can sağlığı, uzun ömür, haqqa qovuşanlara Allahdan rəhmət diləyirəm! Müəllim kollektivinə də eyni arzularımı bildirirəm.

Məktəbimizin 70 illik tarixinin 36 ili mənim payıma düşüb. Xalqımıza həmişə ləyaqətlə xidmət edən müəllim kollektivimizi təqdim edirəm: Nigar Allahverdiyeva, Abayat Qurbanova, Ceyran Qurbanova, Naida Xiyalova, Tərlan Hüseynova, Leyla Quliyeva, Gülnarə Suleymanova, Sevda Muzaşvili, Elmira Əliyeva, Şəfəq Naibova, Səbinə Qocayeva, Fidan Rzayeva, Aysel Əliyeva, Gülgün Məmmədova, Nana Bukia, Tsiuri Abazadze, Dali Nemsadze və b. Onlar "Əsl insan yetişdirək" devizi ilə yaşamış, yaşayır və fəaliyyətlərini davam etdirirlər.

Bizimlə çiyin - çiyinə çalışan şagirdlərimizdən: Gülnarə Süleymanova, Səbinə Qocayeva, Nairə Paşayeva və b. adlarını da vurğulamaq istəyirəm. Yeni direktorumuz Xatuna Şenqelia isə gənc kadrlarla kollektivimizi daha



da genişləndirir.

Bu şərəfli işdə müəllimlərlə birgə addımlamaq mənim üçün zövqvericidir. Anadan bir də olsam, yenə də bu müqəddəs peşəni seçərdim.

Məktəbimizi yaşatmaqda və inkişaf etdirməkdə hərbir müəllimin rolu böyükdür. Axı təlim tərbiyə, təhsil həm xalqımızın, həm də vətənimiz Gürcüstanın gələcəyidir. Məktəbimiz olimpiadalarda, tədbirlərdə və ictimai işlərdə və s. fəal iştirak edir.

Şagirdimiz Emil Əliyev Gürcüstanda azərbaycan dilli məktəblər arasında keçirilən "Ana dili varlığımızdır" adlı inşa yarışmasında qalib oldu (3-cü yer). IX sinifdə dövlət olimpiadasında 4 fəndən - Gürcü dili, Coğrafiya, Kimya, Biologiya üzrə müsabiqədə ikinci tura keçdi və məktəbimizin adını daha da yüksəltdi. Yeri gəlmişkən deyək ki, məktəbimizin fəxri və əlaçı şagirdidir. O, " Qızıl medal"a da namizəddir.

IX sinif şagirdləri Yusif Əsgərov və Nəzrin Qəmbərovanı da qeyd etmək bizim üçün xoşdur. Yolları açıq və uğurlu olsun!

Məktəbimizdə hər bir fənnə şagirdlər tərəfindən maraq var. O cümlədən də, Azərbaycan ədəbiyyatına və Azərbaycan dilinə. Bütün dərs dediyim siniflərdə ənənə halına gətirərək, Azərbaycan ədəbi dilinə daha geniş yer veririk. Ədəbi dilimizi qoruyub və inkişaf etdiririk. Siniflərdə şeir, hekayə, kiçik nağıllar yazanların sayı isə artmaqdadır. Leyla Məmmədovanın (XII sinif) şeiri mətbuatda çap olunur. V sinif şagirdi Əlimehdi Baxşıyev kiçik hekayələri ilə böyük maraq doğurur.

Zaman - zaman 64 saylı ictimai məktəbin müəllim və şagirdlərinin yaradıcılıqları bu qəzetdə işıq üzü görür. Buna görə məktəb və kollektiv adından dərin təşəkkürümü bildirirəm. "Gürcüstan" qəzetinin redaksiya heyətinə dəstəyə görə var olun deyirik!

Əziz oxucular! "Gürcüstan" qəzeti bizim milli mətbuatımızdır. Bu qəzeti qoruyub saxlamaq, gələcək nəsillərə başuca ötürmək bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Yeri gəlmişkən Azərbaycan Respublikasının Gürcüstandakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Faiq Quliyevə və onun əməkdaşlarına da bizə göstərdikləri diqqətə görə də minnətdarlığımızı bildiririk.

Ölkəmizin bütün vətəndaşlarını, o cümlədən dünya azərbaycanlılarını qarşıdan gələn "Yeni il" və "Həmrəylik günü" münasibəti ilə ürəkdən təbrik edir, can sağlığı, işlərində müvəffəqiyyətlər arzulayıram!"

**Abayat Qurbanova,**
**Tbilisi 64 saylı ictimai məktəbin müəllimi.**

*Mənəviyyat*

# CƏNNƏTDƏKİ DOĞUM GÜNÜNÜZ MÜBARƏK!



Zahid Nəsibov dövrümüzün tanınmış və xeyirxah ziyalısı idi. Onun görünüşündən, davranış və danışığından, "Ağır oturub, batman gəlməyindən", nəzakət və alicənablığından insanlara qarşı sadə və təvazökar olduğu hiss olunurdu. Ziyalıya (insanlığa) xas olan xüsusiyyətləri, ədəb-ərkanı ilə sayılıb - seçilər və sevilərdi. Dünya malında-vəzifədə, şan-şöhrətdə, ad-sanda gözü yox idi. Bir çoxları kimi nə onun-bunun qarşısında əyilmək, qələmini güdüb özü haqqında tərif eşitmək, özünü şişirdib təkəbbürlü aparmaq, nə də "mənəmlik", "qaç, atım ayaqladı" etmək iddiasında olmayıb... Zahid müəllimin bu cür yüksək insani keyfiyyət və əxlaqi dəyərlərinin kökündə, ailəsinin əsilzadəliyi, ata-ana şəxsiyyəti, halallığı və boya-başa çatdığı elin insanlarının mədəni davranışı, müəllimlərinin ədəb-ərkanı, qayğıkeşliyi dururdu. Ailədən gələn, ruhunda yaşayan, damarında dövr edən qanındakı bu keyfiyyətlər Zahidin özünün təbiətindən, daxili zənginlik və istedadından, dərin zəkasından, geniş və hərtərəfli biliyindən, dünyaya real baxışından irəli gəlirdi... Zahidin gözlərim önündə baş verən son anları, ölüm və can verməsini xatırlamaq mənə çox çətindir. O, ağrıdığını heç kimə bildirmirdi. Həmişə olduğu kimi, o, yerinə uzananda kitab oxumağı sevirdi. Bu dəfə də, ailəmizin dostu, şair-publisist və həmkar eloğlumuz Əlixan Yəhyaoğlunun "Ayrılığın dağ çəkibdi sinəmə" şeirlər kitabını istədi. Bir az dirsəklənib oxumağa başladı. Hərdən gözlərini kitabdan ayırıb uzaqlara baxır, xəyallara dalırdı. Üzünü mənə çevirib kövrək səslə: "Xumayə xanım, həmkarınız Əlixan Yəhyaoğlunun bayatıları, əsl klassik üslubda yazılmış bayatılardır. O, istedadlı publisist, realist və satirik şairdir", - deyən kimi kitab əlindən sinəsinə düşdü və bir daha gözünü açmadı. Beləcə, Zahid çox sevdiyi dostunun şeirlərindən bir neçəsini oxuyub əbədiyyətə qovuşdu"...

Hər il dekabrın 26-da ailəliklə, doğma-əzizlərlə birlikdə Zahidin doğum gününü qeyd edərdik. Artıq 4 ildir Zahid müəllimin ad günlərini onsuz qeyd edirik. Cənnətdəki Doğum gününüz mübarək, Zahid müəllim! **Amin!**

**Xumayə Nəsibova,**
**Zahid Nəsibovun həyat yoldaşı, Marneuli, Algeti 1 saylı ictimai məktəbinin müəllimi.**

# GƏNCLƏRİN ƏKDİYİ AĞACIN KÖLGƏSİ GƏLƏCƏYİNDİR !

Qarşıma bir video çıxdı ... sonsuz görünən yaylaqda həzin bir musiqi ilə uzunqulaqla su gətirməyə gedən ana - bala... kimin üçünsə adi görünən bu mənzərə yazar qələmiylə, şeirin diliylə, rəssam fırçasıyla baxanda bir dünya idi. Nə qədər ciddi baxsam da kövrəklik məni məndən aldı. Tərəkəmə babalarımızın saz sinəsində apardığı məclislər, tütək avazıyla getdiyi yaylaqlar, analarımızın yaydığı fətirlər, yoğurduğu qurudlar, yallı çəkdikləri halaylar gözüm önünə gəldi. Bu dəfə "çapar qələmim" qəhrəmanımı gənclər sırasında axtardı.... QARAÇÖP adlanan bir el var. — Bu Çar İraklini qonaq qəbul edən, İlia Çavçavadzeyə o məşhur hekayəni yazdıran həmin eldir. Qaraçöp səkkiz kəndi özündə birləşdirən, 30.000 əhalisi olan, bugünki Gürcüstan gəncliyində öz dəsti xətti olan, özünü təqdim etməyi bacaran bir eldir. Tanıdıqca mənə elə gəlir ki, miqyasla götürsək, ən çox tələbə elə qaraçöplülərdir. Belə gəncliyi yetişdirən müəllimlərə baş əyirəm…! Bu gün Sizə həmin o videodakı həzin musiqinin sədaları ilə bir gəncimizdən danışacam. Yaylaqlarda uşaqlıq yaşayan, arzularının iziylə Bakıya yol alan, "örkənini doğanaqdan fırlayıb" özünü elində tamamlayan, bəlkə də yenidən quran bir gənc müəllimdən. Bu müəllimin tədris etdiyi fənn gənclərə "heç bir imtahanda lazım olmadığı" qədər hər yerdə lazım olur. Bax bu biganə münasibətdən başladı hər şey... Xəzər Qaraçöpdə Muğanlı orta məktəbindən məzun olanda ali təhsilin yolu yalnız Bakıdan keçə bilərdi. Beləcə, Azərbaycan Neft Akademyasına sənəd verdi və qəbul oldu. O məzun olanda artıq 1+4 proqramı başlamışdı. Bu çox qürurverici idi, amma Xəzər gənclərin ana dili səviyyəsindən heç razı deyildi. Attestat imtahanlarının olmaması bir məsuliyyətsizlik yaradırdısa, Azərbaycan dili və ədəbiyyatına biganəlik də bir dərd idi. Təqaüdçü professor, həmkəndlisi Fərhad Xubanlı və orta məktəbdə ona ədəbiyyatı sevdirən müəllimləri Müşkünaz müəllimin və Nazlı müəllimin dəstəyi ilə Xəzər bir neçə yerə müraciət elədi. Ali təhsili dəqiq sahə olsa da, kadr çatmamazlığı səbəbi ilə o, Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyətə başladı. Bu işlədiyi iki məktəbdə tam və əsaslı dəyişikliyə gətirdi. Xəzərin ədəbiyyat sevgisi artıq bütün Qaraçöp şagirdlərində cücərməyə başladı. Düzgün yazılış qaydaları, qiraət, mütaliə şagirdlər arasında geniş vüsət aldı. Xəzər sübut etdi ki, Azərbaycan dilini qrammatik, bədii bilmədən heç vaxt başqa dili də öyrənə bilməzsən, necə deyərlər, yarımçıq papaqçılıq... Xəzər Azərbaycan dili müəlliminə ehtiyac olan iki kənddə - Ləmbəli və Muğanlı məktəblərindən sertifikasiya imtahandan maksimum bal toplamaqla baş müəllim oldu. Beləcə, Bakıdan Qaraçöpün Muğanlı elinə dönən Xəzərin gözəl balaları, həkim xanımı və özünü təqdim edən, marağında olduğu sevdiyi işi var. Xəzərin tətilləri təbiət qoynunda - yaylaqların havasında, çayların zümzüməsində tamamlanır. Günlərin bir günü "Gələcək bizimlə gələcək"-dedilər. Bir neçə layiqli dostların sayəsində artıq Qaraçöpdə kitabxana da var. Bəli, sizi deyib gəlmişəm - dedi qaraçöplü balalara, ana dilimizi sevək- deyə, bulaq başına halaya yığılaq- deyə, saz götürüb yallı gedək- deyə... Bax beləcə, 30 saniyəlik çəkilişin izi bizi bir müəllimin dünyasına apardı. Hələlik Qaraşöp deyirəm, yenidən yazmaq üçün...



**Esmira Ələkbərli,**
**Marneuli, Qaçağan 2 saylı ictimai məktəbinin müəllimi.**

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ: GÜRCÜSTANDAN AZƏRBAYCANLI GƏNCİN BAXIŞI

Mənim üçün 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü, yalnız təqvimdəki bir tarix deyil, milli birliyimizin, mədəniyyətimizin və kimliyimizin ən önəmli simvollarından biridir. Gürcüstanda yaşayan azərbaycanlı gənc kimi, bu günü böyük sevgi və qürurla qarşılayıram.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dünya azərbaycanlılarını bir araya gətirən, milli ruhumuzu gücləndirən bir bayramdır. Bu gün, bizi tariximizə, mədəniyyətimizə və ənənələrimizə daha da yaxınlaşdırır, harada olmağımızdan asılı olmayaraq, azərbaycanlı olduğumuzu xatırladır. Gürcüstan, əsrlər boyu müxtəlif xalqların birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu bir diyardır. Burada yaşayan azərbaycanlılar olaraq biz də həm Gürcüstan cəmiyyətinin fəal üzvləriyik, həm də öz milli kimliyimizi qorumağa çalışırıq. Gənclər olaraq dilimizi, musiqimizi, adət-ənənələrimizi gələcək nəsillərə ötürməyi özümüzə mənəvi borc bilirik.

31 Dekabr yalnız həmrəylik günü deyil, həm də bizə böyük bir məsuliyyəti xatırladır—birlikdə güclü olmaq, azərbaycançılıq ideallarını yaşatmaq və bu dəyərləri bütün dünyada tanıtmaq. Gürcüstanda yaşayan bir azərbaycanlı gənc kimi, bu gün mənə milli ruhumuzu daha dərindən hiss etdirir və bu dəyərləri qorumağa daha böyük həvəs verir. Bu əlamətdar gündə, bütün dünya azərbaycanlılarına həmrəylik, sülh və xoşbəxtlik arzulayıram. Qoy, hər birimiz öz köklərimizə bağlı qalıb, azərbaycanlı adını harada yaşamağımızdan asılı olmayaraq, layiqincə təmsil edək. Bayramınız mübarək, əziz həmvətənlər! Birliyimiz və həmrəyliyimiz daim güclü olsun!



**Arzu Əliyeva,**
**İngilis dili müəllimi.**

# YENİ İL ƏNƏNƏLƏRİ: 12 ÜZÜMÜN MİSTİKASINA BAXIŞ



Yeni il yaxınlaşdıqca, hər kəsin qəlbində bir fərqli həyəcan oyanır. Bu, sadəcə təqvimin dəyişməsi deyil – keçmişi arxada buraxıb, yeni başlanğıclar üçün qapıların açılmasıdır. Hər yeni il, sanki gizli bir sehr gətirir. İstər isti ailə süfrələri, istər şəhərin işıqlı küçələri, istərsə də özümüzə etdiyimiz kiçik vədlər – hər şey bu möcüzəni tamamlayır.

Heç düşünmüsünüzmü, Yeni il bayramı niyə demək olar ki, dünyanın hər bir güşəsində belə sevgi ilə qeyd olunur? Çünki Yeni il yalnız təqvimdəki rəqəmləri dəyişmir, həm də ümidləri oyadır. Bu bayramın cazibəsi, bəlkə də, hər birimizin ürəyində "bəlkə bu il arzularım çin olar" inancında gizlidir.

Yeni il hər bir insan üçün yeni başlanğıcın simvoludur. Müxtəlif mədəniyyətlər bu dönüş nöqtəsini qeyd etmək üçün özünəməxsus ənənələrə sahibdir. Onlardan biri də İspaniya və Latın Amerikası ölkələrində geniş yayılmış 12 üzüm ənənəsidir.

Yeni ildə masa altında 12 üzüm yemək ən çox İspaniya və Latın Amerikası ölkələrində geniş yayılmış bir ənənədir. Bu inanc şansın 12 üzümü adlanır və Yeni il gecəsi saat 12:00-da hər zəng səsinə bir üzüm yeməyi əhatə edir.

Bu ənənəyə görə hər bir üzüm yeni ilin bir ayını təmsil edir və hər üzümü yeyərkən arzu tutmaq şans gətirir.

Üzümləri yeyən şəxsə ilin uğurlu keçməsi, xoşbəxtlik və bolluq gətirəcəyi düşünülür.

Ənənə İspaniyadan XIX əsrin sonlarında başlamış və sonradan digər ölkələrə yayılmışdır.

Yeni il ənənələri insanlara ümid və ruh yüksəkliyi verir. 12 üzüm ənənəsi də bu məqsədə xidmət edir. Hər üzüm insanı qarşıdan gələn aylar üçün məqsədlər qoymağa, yeni arzular qurmağa təşviq edir.

Bu gün bu ənənəni sadəcə İspaniyada deyil, dünyanın bir çox ölkələrində sınayanların sayı artıb. Sosial şəbəkələrdə əsasən də gənc qızlar yeni il gecəsi masa altında (adət olaraq qəbul olunub) yediyi üzüm gilələrini daha sonra il boyu xəyallarının gerçəkləşdiyi günləri paylaşırlar.

Bu ritual, həm də əyləncəli bir fəaliyyət olduğu üçün, ailələr və dostlar arasında birləşdirici bir simvol kimi də qəbul edilir. İnancın özü mistik və simvolikdir, amma əsas məqsəd insanların yeni ilə pozitiv və ümidlə başlamalarını təmin etməkdir.

Hər ənənə arxasında dərin bir simvolizm daşıyır. 12 üzüm uğur qazanmaq üçün davamlı çalışmanın və iradənin metaforası olaraq qəbul edilə bilər.

Bununla yanaşı, 12 üzüm yemək ənənəsi özündə həm mistik, həm də psixoloji təsir daşıyır.

Bəzi insanlar bu ənənəni boş bir adət olaraq görür və onun real təsirinə inanmırlar. Həyatda uğur əldə etməyin yalnız müsbət düşüncə və təsadüflərə bağlı olmadığını vurğulayırlar.

Bu cür inanclar tənbəlliyi təşviq edə bilər, çünki insanlar sanki hər şeyin uğur gətirəcəyinə avtomatik sövq-təbii inanır və əməklə bağlılığı unudurlar.

Başqa mədəniyyətlərdən gələn ənənələrin əsl mənasını anlamadan tətbiq edilməsi bəzən mənəvi boşluğa gətirib çıxarır. Əgər özümüzdə nəyisə dəyişmək inancında olmasaq, önümüzə hər şeyin lüks versiyası gəlsə belə, nəticəsi olmur. İnsan öz məsuliyyətini dərk edib, nələrəsə səy göstərməlidir.

2024-ün bitməsinə son günlər qalıb. Bu ili geridə qoyarkən, qəlbinizdə olan kini, nifrəti, qırıqlıqları da geridə qoyun. 365 günə sıfırdan başlayın. Hər gününüzün daha anlamlı olmasını, sevdiklərinizlə daha çox vaxt keçirməyi, yeni dostluqlar qazanmağı və həyatda qarşınıza çıxan çətinliklərin sizi daha güclü etməsini düşünün. Amma Yeni il sadəcə gözləmək deyil, həm də özümüzü daha yaxşı bir insan kimi formalaşdırmaq üçün bir fürsətdir. Bəlkə bu il daha çox oxumağa, sevdiklərimizlə daha çox vaxt keçirməyə və ya xəyallarımızın ardınca getməyə qərar verdiyimiz ildir?

Ümid edirəm ki, 2025 yeniliklərlə və müsbət dəyişikliklərlə dolu bir il olacaq. Həmçinin cəmiyyətimizdə mehribanlıq, ədalət və anlayışın artacağına inanıram. Sevginin mərhəmətinin insanların qəlbini isidəcəyi bir dünya olmasını ümid edirəm.

Yeni il, insanlar üçün həm şəxsi, həm də sosial həyatlarında yeni səhifə açmağın, birlikdə olmağın və həyatın dəyərini anlamağın simvoludur. Bu bayram sevgi, ümid və gələcəyə inam mesajı ilə doludur. Hər bir insan üçün qarşıdan gələn yeni il uğurlu, xoşbəxt və arzularının həyata keçdiyi bir il olsun.

**Yeni iliniz mübarək!**

**Aytən Fətullayeva,**
**İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin tələbəsi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



### 27 dekabr

•1831—Çarlz Darvin daha sonra təkamül nəzəriyyəsini formalaşdırdığı Beagle gəmisində səyahətə çıxıb.
•1918—Polyakların almanlara qarşı böyük üsyanı başlayıb. Üsyan nəticəsində Alman İmperiyasının şərqindəki tarixi Polşa torpaqları yeni gurulmus Polşa ilə birləşib.
•1978—**Frankonun başçılıq etdiyi 40 illik faşist diktaturasından sonra İspaniyada demokratiya bərpa edilib.**
•2007 — Pakistanın keçmiş baş naziri Benazir Bhutto terrorçular tərəfindən güllələnərək öldürülüb.
•2008 —Bakıda Beynəlxalq Muğam Mərkəzinin açılışı olub.

### 28 dekabr

•1895—Lümyer qardaşları Parisin Kapuçin bulvarında yerləşən "Grand Café"də kino əsrini açan ilk film nümayişini keçirib
•Cənubi Sudan—Respublika Günü (2011- cil ildə Cənubi Sudan Şimali Sudana qarşı apardığı müstəqillik mübarizəsindən sonra müstəqil dövlət olub).
•Beynəlxalq Kino Günü

### 29 dekabr

•1813 — İkinci İnglis – amerikan müharibəsi (1812-1815): inglis əsgərlər Nyu-York ştatındakı Buffalonu yandırıblar.
•1987—Sovet kosmonavtı Yuri Romanenko kosmosda 326 gün qaldıqdan sonra Yer Kürəsinə qayıdıb.
•1989—Vatslav Havel postsosialist Çexoslovakiyanın prezidenti olub.
•Azərbaycan — ASAN xidmət işçiləri günü.

### 30 dekabr

•1671 —Fransa tarixində "Günəş Kral" kimi tanınan və aydın mütləqçiliyin banisi sayılan XIV Lüdovik Fransa Memarlıq Kral Akademiyasını yaradıb.
•1806—Rus İmperiyası Bakını işğal edərək Bakı Xanlığını ilhaq edib. Həmin il Rusiya ilə Osmanlı arasında müharibə başlayıb.
•2006—İraqın keçmiş prezidenti Səddam Hüseyn Bağdadda edam edilib.
•Filippin—Rizal Günü (Ölkənın İspaniyadan müstəqilliyi uğrunda apardığı mübarizənin simvoluna çevirilmiş və ispan işğalçılar tərəfindən güllələnərək edam edilmiş həkim Xose Rizalın anım günü).

### 31 dekabr

•1600—İngilis Şərqi Hindistan (Ost Hind) şirkəti qurulub. Həmin şirkətin vasitəsi ilə Hindistan İngiltərə müstəmləkəsinə çevirilib.
•1857—Kraliça Viktoriya Ontario ştatının Ottava şəhərini müstəmləkəsi Kanadanın paytaxtı olaraq seçib.
•1934 — **Cəfər Cabbarlı, Azərbaycan dramaturqu, vəfat edib.**
•1976—Bakıda Nizami Gəncəvi adına metro stansiyası açılıb.
•Azərbaycan—Dünya Azərbaycanlılarının Həmrəylik Günü

### 1 yanvar

•1942 — BMT-nin bəyannaməsi 26 ölkə tərəfindən imzalanıb.
•**1957 — Ramaz Şenqelia, məşhur gürcü futbolçu, anadan olub.**
•1971 — ABŞ televiziyasında siqaret reklamı qadağan edilib.
•2007—Bolqaristan və Rumıniya Avropa Birliyinə üzv olub.

### 2 yanvar

• 1492 — İspaniyada müsəlman hakimiyyətinin son qalası olan Qranada əmirliyi İspan Krallığı tərəfindən ilhaq edilib. Beləliklə, İspaniyada müsəlman idarəçiliyi sona çatıb.
•1839 —Fransız Lui Dager Ayın ilk fotoşəkilini çəkib.
•1942—Yapon qosunları ABŞ-nin idarəçiliyi altındakı Filippinin paytaxtı Manilanı zəbt edib.
•İspaniya — Qranada Günü

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## RAMAZ ŞENQELİA



***Ramaz Şenqelia 1 yanvar 1957-ci ildə Kutaisi şəhərində anadan olub.*** 1968-ci ildə məşqçi Karlo Xurtsidzenin başçılıq etdiyi Kutaisinin "Torpedo" klubunun hazırlıq qrupunda futbol oynamağa başlayıb. 1973-1976-cı illərdə "Torpedo"nun əsas heyətində Sovet İttifaqının Birinci Liqasında çıxış edib. 1977-ci ildən Tbilisinin "Dinamo" klubuna üzv olub. Sözügedən kluba üzv olduğu ilk ildə Şenqelia Sovet İttifaqı çempionatının gümüş mükafatçısı, növbəti il isə ölkə çempionu olub. 1979-cu ildə Sovet İttifaqı Kubokunu da qazanıb. Komanda ilə Şenqelia 1980-1981-ci illərin Avropa çempionlarının Kubokunu qazanıb.

Ramaz Şenqelia Tbilisi "Dinamo"sunun tərkibində Ali Liqanın Birlik çempionatının 283 oyununda iştirak edib və 120 qol vurub. Bundan əlavə, Avropanın beynəlxalq futbol turnirləri çərçivəsində "Dinamo"nun 37 oyunda şərəfini qoruyub və 19 qol, o cümlədən UEFA Kubokunda 16 oyunda 8 qol, Avropa Çempionlar Kubokunda isə 1 qol vurmağa nail olub.

Ramaz Şenqelia 21 iyun 2012-ci ildə vəfat edib.

## CƏFƏR CABBARLI



***Cəfər Cabbarlı 1899-cu il martın 20-də Xızı kəndində anadan olub.*** 1905-ci ildə "Starıy Poçtovı - 25"- də Hacı Məmmədhüseyn Bədəlovun şəxsi mülkündə açılan üçsinifli "7-ci müsəlman və rus" məktəbinə daxil olub. Cəfərin ilk müəllimləri pedaqoq-yazıçı Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski olublar. Cəfər Cabbarlı 1908-ci ildə həmin məktəbi bitirib, sonra Bakıda Alekseyev adına "3-cü ali ibtidai" məktəbə daxil olub. Sözügedən məktəbi 1915-ci ildə bitirib, daha sonra Bakı Politexnik məktəbinin elektro-mexanika şöbəsinə daxil olub və 1920-ci ildə oranı bitirib. Sonra Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olub, amma həmin fakültədən çıxıb. Çünki Cəfəri başqa sahə—teatr maraqlandırırdı. Ona görə də sözügedən sahə ilə yaxından tanış olmaq üçün 1923-cü ildə Bakı Türk Teatr Məktəbində mühazirələrə qulaq asmağa başlayıb.

Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatında və incəsənətində böyük iz qoyub. O, Azərbaycan sovet dramaturqiyasının banisi sayılır. Onun tanınmış əsərləri: "Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş" (1915), "Solğun çiçəklər" (1915), "Nəsrəddin şah" (1916), "Trablis müharibəsi" (1917) və s.

Cəfər Cabbarlı 31 dekabr 1934-cü ildə vəfat edib.

## İSPANİYA

İspaniya Avropanın cənub- qərbində, Pireney yarımadasında yerləşir. Şimalda Fransa və Andorra, qərbdə Portuqaliya ilə həmsərhəddir. Ölkənin paytaxtı Madrid şəhəridir. Böyük şəhərləri Toledo, Barselona, Valensiya, Saraqosadır. Ərazisi 505 990 kv. km. təşkil edir. Əhalisinin sayı 47 493 088 nəfərdir. Ölkənin rəsmi dili roman dil ailəsinə mənsub ispan dilidir. Eləcə də Kataloniya və Basklar ölkəsində katalon və bask dilləri yayğındır. Dövlət quruluşu baxımından konstitusional monarxiyadır. Ölkənin hazırki kralı Burbon xanədanına mənsub VI Filipdir.

İspaniya qədim tarixə və olduqca zəngin mədəniyyətə sahibdir. Qədimdə Pireney yarımadasında müxtəlif keltəsilli qəbilələr yaşayırdı. Şərq və cənub sahillərində isə yunanların və finikiyalıların (karfagenlilərin) ticarət məsgədi ilə qurduğu yaşayış məskənləri var idi. Tarixçilər güman edir ki, ölkənin adı - İspaniya da finikiyalılar tərəfindən qoyulub. Karfagenlilər yarımada üzərində öz hakimiyyətlərini quraraq ölkənin gümüş yataqlarından romalılara qarşı güclü ordu qurmaq üçün istifadə ediblər. Karfagenin Roma qarşısında məğlubiyyətindən sonra yarımadada Roma idarəçiliyi qurulub. Roma idarəçiliyi altındakı İspaniya "Roma İspaniyası" adlandırılıb. Roma İmperiyasının zəifləməsi nəticəsində Qərbi Romanın ərazilərinə müxtəlif alman kökənli qəbilələr məskunlaşıb. Bu qəbilələrdən biri olan vestqotlar İspaniya və indiki Fransanın cənubunu əhatə edən ərazidə Vestqot Krallığı yaradıblar. Qeyd edək ki, Avropa mədəniyyətində bir zamanlar yayğın olan qotika tərzi bu xalq ilə əlaqələndirilir. 711-ci ildə Vestqot Krallığı Tarik bin Ziyadın başçılıq etdiyi müsəlman qoşunları qarşısında məğlub olub. Beləliklə, İspaniyada təqribən 500 il davam edən və bəşəriyyət mədəniyyətinə böyük xidmətlər göstərən müsəlman hakimiyyəti qurulub. Həmin dövrdə İspaniya islam dünyasının mədəni və elmi mərkəzlərindən biri idi.

XI–XV əsrlərdə İspaniyanın şimalında yerləşən və müsəlmanlardan müstəqil olan katolik krallıq "rekonkista", və ya "təkrar fəth" hərəkatını yürüdüb və nəticədə, 1492 - ci ildə Qranada əmirliyinin süqutu ilə müsəlman hakimiyyətinə son qoyulub. Elə həmin illərdə Xristofor Kolumb Amerikanı kəşf edib. Yeni kəşf edilən ərazilərə qısa müddət ərzində ispan işğalçılar (konkistadorlar) gələrək həmin əraziləri İspan Tacına tabe ediblər. Beləliklə, XVI–XVII əsrlərdə Cənubi və Mərkəzi Amerika, Asiyadakı Filippin adaları, indiki Hollandiya, Belçika, Lüksemburq ispan idarəçiliyinə tabe olub.



Lakin XVIII – XIX əsrlərdə bu nəhəng imperiya parçalanmağa başlayıb və müstəmləkələrdə baş vermiş milli inqılablar nəticəsində tutduğu ərazilərdən getməli olub (günümüzdə İspaniya Şimali Afrikada (Marokkoda) Seutaya və Atlantik Okeanındakı Kanar adalarına nəzarət edir). XX əsr İspaniya üçün olduqca ağır olub – ölkə siyasi və iqtisadi böhranlarla qarşı - qarşıya gəlib. 1936 - 1939-cu illərdə ispan ordusunun mühüm hissəsini təşkil edən Fransisko Frankonun rəhbərlik etdiyi faşistlər və hakimiyyətdə olan respublikaçılar arasında qanlı vətəndaş müharibəsi baş verib. Respublikaçıları SSRİ və Qərbi demokratik dövlətlər, faşistləri isə Almaniya və İtaliya dəstəkləyib. Müharibə Frankonun qələbəsi ilə nəticələnib. Ölkədə 1975 - ci ilə qədər davam edən faşist diktaturası qurulub.

Franko rejimi ləğv edildikdən sonra İspaniya konstitusional monarxiyaya çevirilib.

İspaniya olduqca inkişaf etmiş kənd təsərrüfatına malikdir. Kənd təsərrüfatının aparıcı sahəsi bitkiçilikdir (məhsulun 50 faizdən çoxunu təmin edir). Buğda (əkin sahəsinin təxminən 20 faizi), arpa, qarğıdalı (ölkənin mərkəzi və cənub rayonlarında), çəltik (Aralıq dənizi sahillərinin suvarılan torpaqlarında; onun məhsuldarlığı İspaniyada ən yüksək göstəricilərdən biridir), kartof, şəkər çuğunduru və paxlalılar. Həmçinin tərəvəzlər (əkin sahəsinin 60 faizini təşkil edir): pomidor, soğan, bibər, badımcan və s.

Eləcə də İspaniya zeytunçuluq sahəsində aparıcı ölkələrdən biridir. Əlavə edək ki, ölkədə sitrus meyvələri və tütün də yetişdirilir. Ölkənin cənubunda badam (Qərbi Avropanın aparıcı ixracat yeridir), xurma və şəkər qamışı (Avropada yalnız İspaniyada bitir), əncir, nar və pambıq da yetişdirilir.

İspaniya balıq, dəniz məhsulları və onların emalı üzrə dünyanın ilk on ölkəsindən biridir və təzə balıq və konservləşdirilmiş balıqların əsas ixracatçısıdır (hər il ümumi ovlanan balığın 20-25 faizi konservləşdirilir). Balıqçılığın əsas məskəni Kantabriya, Basklar ölkəsi və Qalisiya sahilləridir. Ən çox tutulan balıq sardina, hake, skumbriya, hamsi və treskadır.

İspan sənayeçiliyinin ən qədim sahəsi mədənçilikdir. Eləcə də İspaniyada gəmi istehsalı inkişaf edib. Ölkə SEAT markalı avtomobillər istehsal edir. İspaniya dünya ayaqqabı ixracının 4 faizini təşkil edir.

İspaniya Avropa və dünya mədəniyyətində olduqca mühüm yerə sahibdir. Sözügedən ölkə məşhur Don Kixot əsərinin müəllifi Miqel de Servantesin, rəssam Pablo Pikassonun, Salvador Dalinin vətənidir. Ölkə idman sahəsində də mühüm rol oynayır –dünyaca məşhur "Real Madrid" və "Barselona" futbol klubları və onların üzvü olan peşəkar idmançılar futbol ilə maraqlanan şəxslərə yaxşı tanışdır. Eləcə də qədim idman növü və günəş kultu ilə əlaqəli olan "korida"nın vətəni İspaniyadır.



# GÜRCÜSTAN

TARİXİ YAŞADANIN TARİXİ 103 1921-2024

Qəzet 1921-ci ilin martından çıxır | „GÜRCÜSTAN“ – „საქართველო“ Güc birlikdədir – ძალა ერთობაშია | გაზეთი გამოდის 1921 წ. მარტიდან

E-mail: Gurcustan_1921@ mail.ru Tel: +995 32 222 04 76 Həftəlik qəzet

# 2025



## QƏDİM ŞƏRQ TƏQVİMİNƏ GÖRƏ BU İL İLAN İLİDİR

*2025-ci il Çin təqviminə əsasən İlan ilinin təsiri altında keçəcək. İlan ən sirli canlı hesab edilir.*

*İlanlar hər zaman səbirli və planlıdır. 2025-ci il böyük planlar qurmaq və bu planları həyata keçirmək üçün ideal il olacaq. Bu il emosiyalarla ağıllı düşüncə arasında balans qurmaq vacib olacaq. İnsanlar instinktiv olaraq daha düzgün seçimlər edə bilərlər.*

*İlan çeviklik və uyğunlaşma simvoludur, buna görə də 2025-ci ildə insanlar həyatlarındakı dəyişikliklərə asanlıqla uyğunlaşa biləcəklər. İlan ilində özünüzü mənəvi cəhətdən gücləndirmək üçün böyük imkanlar yaranacaq. 2025-ci il həm ruhi, həm də maddi cəhətdən çox şey vəd edən bir il olacaq!*



### YANVAR - იანვარი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 6 | 13 | 20 | 27 |
| Çərşən. ax. | სამშაბათი | | 7 | 14 | 21 | 28 |
| Çərşənbə | ოთხშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Cümə ax. | ხუთშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Cümə | პარასკევი | 3 | 10 | 17 | 24 | 31 |
| Şənbə | შაბათი | 4 | 11 | 18 | 25 | |
| Bazar | კვირა | 5 | 12 | 19 | 26 | |

### FEVRAL - თებერვალი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 3 | 10 | 17 | 24 |
| Çərşən. ax. | სამშაბათი | | 4 | 11 | 18 | 25 |
| Çərşənbə | ოთხშაბათი | | 5 | 12 | 19 | 26 |
| Cümə ax. | ხუთშაბათი | | 6 | 13 | 20 | 27 |
| Cümə | პარასკევი | | 7 | 14 | 21 | 28 |
| Şənbə | შაბათი | 1 | 8 | 15 | 22 | |
| Bazar | კვირა | 2 | 9 | 16 | 23 | |

### MART - მარტი

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 3 | 10 | 17 | 24 | 31 |
| Çərşən. ax. | სამშაბათი | | 4 | 11 | 18 | 25 | |
| Çərşənbə | ოთხშაბათი | | 5 | 12 | 19 | 26 | |
| Cümə ax. | ხუთშაბათი | | 6 | 13 | 20 | 27 | |
| Cümə | პარასკევი | | 7 | 14 | 21 | 28 | |
| Şənbə | შაბათი | 1 | 8 | 15 | 22 | 29 | |
| Bazar | კვირა | 2 | 9 | 16 | 23 | 30 | |

### APREL - აპრილი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 7 | 14 | 21 | 28 |
| Çərşən. ax. | სამშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Çərşənbə | ოთხშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Cümə ax. | ხუთშაბათი | 3 | 10 | 17 | 24 | |
| Cümə | პარასკევი | 4 | 11 | 18 | 25 | |
| Şənbə | შაბათი | 5 | 12 | 19 | 26 | |
| Bazar | კვირა | 6 | 13 | 20 | 27 | |

### MAY - მაისი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 5 | 12 | 19 | 26 |
| Çərşən. ax. | სამშაბათი | | 6 | 13 | 20 | 27 |
| Çərşənbə | ოთხშაბათი | | 7 | 14 | 21 | 28 |
| Cümə ax. | ხუთშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Cümə | პარასკევი | 2 | 9 | 16 | 23 | 30 |
| Şənbə | შაბათი | 3 | 10 | 17 | 24 | 31 |
| Bazar | კვირა | 4 | 11 | 18 | 25 | |

### İYUN - ივნისი

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 2 | 9 | 16 | 23 | 30 |
| Çərşən. ax. | სამშაბათი | | 3 | 10 | 17 | 24 | |
| Çərşənbə | ოთხშაბათი | | 4 | 11 | 18 | 25 | |
| Cümə ax. | ხუთშაბათი | | 5 | 12 | 19 | 26 | |
| Cümə | პარასკევი | | 6 | 13 | 20 | 27 | |
| Şənbə | შაბათი | | 7 | 14 | 21 | 28 | |
| Bazar | კვირა | 1 | 8 | 15 | 22 | 29 | |

### İYUL - ივლისი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 7 | 14 | 21 | 28 |
| Çərşən. ax. | სამშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Çərşənbə | ოთხშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Cümə ax. | ხუთშაბათი | 3 | 10 | 17 | 24 | 31 |
| Cümə | პარასკევი | 4 | 11 | 18 | 25 | |
| Şənbə | შაბათი | 5 | 12 | 19 | 26 | |
| Bazar | კვირა | 6 | 13 | 20 | 27 | |

### AVQUST - აგვისტო

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 4 | 11 | 18 | 25 |
| Çərşən. ax. | სამშაბათი | | 5 | 12 | 19 | 26 |
| Çərşənbə | ოთხშაბათი | | 6 | 13 | 20 | 27 |
| Cümə ax. | ხუთშაბათი | | 7 | 14 | 21 | 28 |
| Cümə | პარასკევი | 1 | 8 | 15 | 22 | 29 |
| Şənbə | შაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Bazar | კვირა | 3 | 10 | 17 | 24 | 31 |

### SENTYABR - სექტემბერი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Çərşən. ax. | სამშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Çərşənbə | ოთხშაბათი | 3 | 10 | 17 | 24 | |
| Cümə ax. | ხუთშაბათი | 4 | 11 | 18 | 25 | |
| Cümə | პარასკევი | 5 | 12 | 19 | 26 | |
| Şənbə | შაბათი | 6 | 13 | 20 | 27 | |
| Bazar | კვირა | 7 | 14 | 21 | 28 | |

### OKTYABR - ოქტომბერი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 6 | 13 | 20 | 27 |
| Çərşən. ax. | სამშაბათი | | 7 | 14 | 21 | 28 |
| Çərşənbə | ოთხშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Cümə ax. | ხუთშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Cümə | პარასკევი | 3 | 10 | 17 | 24 | 31 |
| Şənbə | შაბათი | 4 | 11 | 18 | 25 | |
| Bazar | კვირა | 5 | 12 | 19 | 26 | |

### NOYABR - ნოემბერი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | | 3 | 10 | 17 | 24 |
| Çərşən. ax. | სამშაბათი | | 4 | 11 | 18 | 25 |
| Çərşənbə | ოთხშაბათი | | 5 | 12 | 19 | 26 |
| Cümə ax. | ხუთშაბათი | | 6 | 13 | 20 | 27 |
| Cümə | პარასკევი | | 7 | 14 | 21 | 28 |
| Şənbə | შაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Bazar | კვირა | 2 | 9 | 16 | 23 | 30 |

### DEKABR - დეკემბერი

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ert. | ორშაბათი | 1 | 8 | 15 | 22 | 29 |
| Çərşən. ax. | სამშაბათი | 2 | 9 | 16 | 23 | 30 |
| Çərşənbə | ოთხშაბათი | 3 | 10 | 17 | 24 | 31 |
| Cümə ax. | ხუთშაბათი | 4 | 11 | 18 | 25 | |
| Cümə | პარასკევი | 5 | 12 | 19 | 26 | |
| Şənbə | შაბათი | 6 | 13 | 20 | 27 | |
| Bazar | კვირა | 7 | 14 | 21 | 28 | |

**1 Yanvar - Yeni il; 7 Yanvar - "Şoba" (Mövlud); 19 Yanvar - "Natlisğeba"(İsanın suya çəkilməsi); 3 Mart - Analar günü; 8 Mart - "Beynəlxalq Qadınlar günü"; 21 Mart - Novruz bayramı; 9 Aprel - İşgəncə ilə həlak olanların xatirə günü; 30 Aprel - Mərhumların anım günü; 3 May -"Ağqo-ma" (Zühur); 6 May -"Qiorqoba"; 9 May - Qələbə günü; 12 May - Gürcüstanda xristianlığı ilk dəfə təlqin edən Müqəddəs Andreyin xatirəsi günü; 26 May - Gürcüstanın müstəqilliyinin bərpası günü; 19 Avqust - Rənglərin dəyişməsi (Xristianlıqda dini bayram); 28 Avqust - "Mariamoba" (Məryəm ana) günü; 14 Oktyabr - "Svetisxovleba" - "Mtsxetoba" bayramı; 23 Noyabr - "Qiorqoba" (Müqəddəs Qiorqi) günü.**

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი“ ს/კ 203863792
ანგარიშის
**№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, 1-ci mərtəbə.
E-mail: Gurcustan_ 1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet “Kolori” nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.